# Mühazirə -18.

## Azərbaycanda sovet dövlət aparatının təşkili.
## Siyasi və sosial-iqtisadi vəziyyət (1920-1945-cı illərdə).

***Plan:***

1. *Azərbaycanda sovet hakimiyyətinin qurulması.*
2. *Azərbaycan SSR-də yeni iqtisadi siyasət.*
3. *Azərbaycan ərazisinə yeni qəsdlər. DQMV-nin və Naxçıvan MSSR-in yara-dılması.*
4. *İnzibati-amirlik sisteminin bərqərar olması. Kütləvi represiyalar.*
5. *Azərbaycan SSR II Dünya müharibəsi dövründə.*
6. *Azərbaycan mühacirəti müharibə illərində.*

***Ədəbiyyat:***


1. *H.Ə. Əliyev. Tariximizin hec bir səhifəsini unutmamalıyıq. Qələbənin 56-cı münasibəti ilə təntənəli mərasimdə nitq: "Respublika" qəzeti., Bakı, 11 may 2001-ci il.*
2. *Azərbaycan tarixi. 7 cilddə,VI, VII cild (1920-1941-ci illər). Bakı, 2008.*
3. *XX əsr Azərbaycan tarixi. Bakı,2009.*
4. *Qafarov T. Azərbaycan tarixi ( 1920-1991).Bakı,1999.*
5. *Qafqazda sovet totalitarizmi (20-30-cu illər). Bakı, 1998.*
6. *Bünyadov Z. Qırmızı terror. Bakı, 1993.*


Aprelin 27-də XI Ordunun süngülərinə söykənən kommunistlər Azərbaycan milli hökumətini devirib hakimiyyəti ələ keçirdilər. Bu həqiqəti çevrilişi həyata keçirən bolşeviklərin özləri etiraf etdilər. Məsələn: Həmid Sultanov (Xalq Daxili İşlər Komissarı) Azərbaycan K(b)P-nin II qurultayındakı (1920-ci il oktyabr) çıxışında bildirirdi: «Hakimiyyətin devrilməsində mən özüm şəxsən iştirak etmişəm. Mən yaxşı başa düşürdum ki, arxamızda Yalamada yerləşən qırmızı süngülər dayanır. Mən tələbləri hökumətə təqdim edəndə MK-ya ümid etmirdim ki, o işi ləngidə bilər. Ancaq arxayın idim ki, qırmızı süngülər indi də olmasa sabah, o birisi gün burada olacaqdır. Bu müddətdə məni və mənim yoldaşlarımı öldürsələr belə, Bakı fəhlələri qalxacaq və Sovet hakimiyyətinə hazır şəkildə yiyələnəcəklər. Belə də oldu, biz Sovet hakimiyyətini hazır şəkildə aldıq, bizə onu qabda gətirdilər».

Aprelin 28-də AK(b)P MK Azərbaycan Müvəqqəti İnqilab Komitəsini Azərbaycanın ali siyasi hakimiyyət orqanı elan etdi. İnqilab Komitəsi elə ilk müraciətdən XI Orduya qarşı silahlı müqavimət göstəriləcəyi təqdirdə terrora əl atacığını bəyan etdi. Lakin ilk günlərdə nə xalq, nə də milli ordu tərəfindən XI Orduya qarşı elə bir ciddi müqavimət göstərilmədi. Bu bir sıra səbəblərlə bağlı idi: **1)** hadisələrin mahiyyətini dərk edən və işğalçı qoşunlara qarşı çıxmağa qadir olan qüvvələr başa düşürdülər ki, yaranmış qüvvələr nisbətində müqavimət mənasızdır və saysız qurbanlarla nəticələnə bilər; **2)** 1918-ci ilin mart qırğınının dəhşətlərini yaşayanlar vahimə keçirir, dağlara, meşələrə çəkilir və bu işin hansı sonluqla qurtaracağını gözləyirdilər; **3)** Azərbaycanda yaşayan çoxsaylı rus, erməni və digər millətlərin nümayəndələri XI Ordunun timsalında özlərinin müdafiəçilərini görür

və yaranmış qeyri-milli hökumətə tünlük verirdilər. **4)** işğalçı XI Ordunun önündə gələn türkiyəli zabitlər xalqa bildirirdilər ki, ordu Azərbaycanda qalmayacaq və buradan keçib Anadoluya, ölüm-dirim savaşı aparan Türkiyəyə köməyə gedəcək. **5)** Azərbaycan hökuməti xalqa baş verən hadisələrlə bağlı müraciət etmədi. Bu səbəbdən xalq ilkin dövrdə nə baş verdiyni anlaya bilmədi.

1920-ci il aprelin 27-dən avqustun 25-dək Azərbaycanın 16 qəzasında İnqilab Komitələri təşkil edildi. Bu komitələrdə fəaliyyət göstərən 70 nəfərdən 41-i kommunist idi. Aprel çevrilişindən sonra Azərbaycanda ilk dövrdə ali qanunverici və icraedici orqan kimi **Müvəqqəti İnqilabi Komitə** elan edilmişdi. Onun tərkibi əsasən azərbaycanlılardan ibarət idi: N.Nərimanov – sədr, M.Hüseynov, Ə.Qarayev, H.Sultanov, A.Əlimov (Sovet Rusiyası Xalq Milli İşlər Komissarlığı Kollegiyasının üzvü olan N.Nərimanov Leninin göstərişi ilə Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissar təyin olunmuşdu (O, Bakıya mayın 16-da gəlmişdi). İnqilab Komitəsi aprelin 28-də öz qərarı ilə respublikanın yeni hökumətinin – Xalq Komissarları Şurasının tərkibini təsdiq etdi. Yeni hökumətin sədri və Xalq Xarici İşlər Komissarı N.Nərimanov olsa da, bu zahiri xarakter daşıyırdı. Əsl həqiqətdə Azərbaycanda aprel çevrilişi nəticəsində hər birinin öz məqsəd və mənafeyi olan müxtəlif siyasi qüvvələr hakimiyyətdə təmsil olunmuşdu. Bunları şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar: a) Moskvanın siyasi xəttini Azərbaycanda həyata keçirən müxtəlif millətlərin nümayəndələrini təmsil edən qüvvələr; b) «Beynəlmiləlçi» azərbaycanlı bolşeviklər; c) Xalqın azadlıq yolunu sosializmdə görən milli hissli və milli baxışlı kommunistlər; ç) Siyasi çevrilişdən istifadə edib, Respublikada hakimiyyətə gəlmiş və intiqam hissi ilə fəaliyyət göstərən erməni kommunistlərindən ibarət qüvvələr.

Azərbaycan hökuməti tərəfindən terroru həyata keçirən əsas təşkilat **Fövqəladə Komissiya** idi. Bununla yanaşı, respublikada və xüsusilə qəzalarda fəaliyyət göstərən XI Ordunun **Xüsusi şöbəsi** də tam sərbəst fəaliyyət göstərir və hökuməti belə saymırdı. Bu şöbənin işçiləri qəzaya qoşun girdikdən sonra varlı adamların bir hissəsini həbs edir, bir hissəsini isə güllələyirdilər. İlk günlərdən, yüzlərlə günahsız adam onların qanlı əməllərinin qurbanı olmuşdu. Qızıl Ordu tutduğu ərazilərdə özbaşınalıqlar törədirdi. Əsgərlər və zabitlər ən azı bir həftə tutduqları ərazidə soyğunçuluq etdilər. Əhali, banklar talandı. Yığılan sərvətlər, qızılgümüş, 300 min ton neft, 730 min pud pambıq və çoxlu ipək əvəzsiz Rusiyaya daşındı. Azərbaycanın başqa bir bəlası bolşeviklər tərəfindən həyata keçirilən «müsadirə əməliyyatı» idi. «Müsadirə» adı altında az-çox imkalı adamların, o cümlədən ziyalıların siyahısı tutulur, onların evlərində təhqiramiz formada axtarışlar aparılırdı. Bu axtarışlar zamanı XI Ordunun **əsgərləri**, **Xüsusi şöbənin** və **Fövqəladə Komissiyanın** əməkdaşları insanların ləyaqətini tapdalayır, onların namus və qeyrət hisslərinə toxunurdular.

Azərbaycanda bolşeviklərin özlərini necə apardıqlarını Rusiyanın Azərbaycandakı canişini, Xalq Təsərrüfatı Şurasının sədri **N.İ.Solovyov** daha dəqiq ifadə etmişdir. O, V.İ.Leninə yazdığı «**Çevrilişdən sonrakı iki ayda (may-iyun) bizim Azərbaycanda siyasətimiz**» adlı hesabat qeydində yazırdı: «Azərbaycanın yeni hökuməti – **İnqilab Komitəsi** azərbaycanlılardan təşkil edilsə də, heç kimə sirr deyil ki, onun üzərində Azərbaycan Kommunist Partiyasının hakimiyyəti vardır. Bu partiyada rəhbərlik erməni-gürcü qrupunun əlindədir. Bu rəhbər qrupun üzvləri kütləvi həbs və ən yaxşı nümayəndələri güllələmək yolu ilə sanki Azərbaycan millətini başsız qoymağı qərara almışlar. Bütün müsəlman ziyalıları və milli burjuaziya nümayəndələri güllələnir, küçədə kütləvi şəkildə həbs edilən müsəlmanlara qarşı ermənilərin istehzaları müsavatçıların əvvəlcədən etdiyi belə bir xəbərdarlığı təsdiqləyir ki, Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi, müsəlmanların düşmənlərinin qələbəsidir, ümummilli bədbəxtlikdir». 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna qədər **48 min** azərbaycanlı (əsasən ziyalılar) məhv edildi. Bütün bu özbaşınalıqlar aprel hadisələrini sükutla qarşılayan Azərbaycan xalqının səbrini tükəndirdi və xalq ayağa qalxdı. Nəticədə 1920-ci il 26 maydan 20 iyunadək Gəncədə, Tərtərdə, Ağdamda, Şuşada və Zaqatalada silahlı üsyan baş verdi. Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən və müstəqilliyi əlindən alındıqdan sonra ictimai-siyasi təşkilatlar, partiyalar, milli ordu hissələri sovet rejiminə qarşı mübarizəyə qalxmış, üsyanlar təşkil etmişdilər. Bu mübarizə öz xarakteri etibarı ilə 1875-ci ildən başlayan milli-azadlıq hərəkatının tərkib hissəsi olmaqla onun dördüncü – sonuncu mərhələsini təşkil edir. Sonuncu mərhələ 1920-ci il aprelin 27-dən 18 oktyabr 1991-ci ilə qədərki dövrü əhatə edir. Qeyd edək ki, işğalcı XI Qırmızı Orduya qarşı müqavimət onların sərhədimizi keçdiyi ilk gündən başlamışdı. Ordumuzun vətənpərvər döyüşçüləri Yalama, Xudat, Xaçmaz və Xırdalan dəmiryol stantsiyalarında işğalçılara qarşı mərdliklə vuruşdular.

Şübhəsiz, yadellilərə qarşı Gəncə şəhərində baş verən üsyan öz miqyası etibarı ilə digərlərindən seçilirdi. Hələ mayın əvvəllərində Mirzə Davud Hüseynov Gəncədəki 3-cü piyada alayının komandiri, polkovnik Cahangir bəy Kazımbəyova Qərbdəki Milli Ordu hissələrini cəmləşdirib Sovet hakimiyyətinin şərtləri altında fəaliyyətə başlamağı əmr etmişdi. Ancaq o heç bir dəyişiklik görmədikdə Azərbaycan ordusunun rəhbərliyini dəyişmək, əsgərləri tərksilah etmək qərarına gəldi. Əvvəlcə Gəncə komendantı şahzadə Məhəmməd Mirzə Qacar, sonra I piyada diviziyasının rəisi general-mayor Cavad bəy Şıxlinski və C.Kazımbəyov vəzifədən uzaqlaşdırıldı. Mayın 12-də şəhərin qubernatoru Xudadat bəy Rəfıbəyli həbs edilərək Bakıya aparılmış və mayın 22-də güllələnmişdi. Şimali Qafqazda formalaşdırılmış və XI Ordu ilə Gəncəyə gətirilmiş «Şəriət alayı» da özünü burada çox pis aparır, yerli əhali içərisində gündə bir şayiə yayırdı. Alayın başçısı

Zülfüqar adamların içərisində nifrət qazanmışdı. Bu səbəbdən şəhərdəki üsyan zamanı camaat onu ələ keçirərək parça-parça etmişdi..

Üsyançılar mərdliklə vuruşsa da mayın 31 -i axşama yaxın şəhər XI Ordunun nəzarətinə keçdi. C.Kazımbəyov başda olmaqla hərbçilərdən kiçik bir hissə mühasirəni yararaq Bərdə istiqamətinə, oradan da Qarabağın içərilərinə irəliləyərək Nuru paşanın hərbi birləşmələrinə qoşuldu.

Yadelli işğalçılara qarşı üsyanda Azərbaycanın görkəmli alimi Firudin bəy Köçərli, o cümlədən qadın, qoca, uşaq, habelə minlərlə vətənpərvər şəhid oldular. Ələ keçmiş üsyançılara və yerli dinc sakinlərə divan tutuldu. Bu işdə Daxili İşlər Komissarı, habelə Hərbi İnqilab Komitəsinin Gəncə üzrə fövqəladə komissarı Həmid Sultanov xüsusi qəddarlığı ilə fərqləndi. Gəncədəki «xidmətlərinə» görə M.Q.Yefremov "Qırmızı Bayraq" ordeni ilə təltif edildi. Bir qədər sonra Vətənimizdə işğalçı rejimi amansızlıqla bərqərar etməkdə göstərdiyi xidmətə görə, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən ikinci dəfə «Qırmızı bayraq» ordeninə layiq görüldü. Azərbaycan SSR adından ona qiymətli daş-qaşla bəzədilmiş qılınc bağışlandı. Gəncə üsyanı və sonrakı «təmizləmə» vaxtı 13 min nəfərdən çox vətənpərvər şəhid oldu. Üsyan yatırıldıqdan sonar başlanan repressiyada 6 general, 6 polkovnik, 3 mayor və 7 kapitan qətlə yetirildi, ümumi sayı 76 nəfərə çatan hərbçi Narginə aparılaraq orada güllələndi. Düşmən də 8500 nəfərdən çox itki vermişdi. Üsyan yatırıldıqdan sonra ermənilər rus əsgərləri ilə birlikdə qan içinda inləyən şəhəri 3 gün qarət etdilər. Əslində yeni sovet rejiminin XI Qırmızı Ordunun köməyi ilə Gəncə əhalisinə son dərəcə qəddarcasına divan tutmaqda məqsədi Azərbaycan əhalisinə sovet hakimiyyətini qəbul etməyənlərin aqibətinin necə olacağı barədə dərs vermək və xalqın azadlıq uğrunda mübarizə ruhunu qırmaq idi.

Qeyd edək ki, Gəncə silahlı üsyanı başlayana qədər Qarabağda XI Qırmızı Ordu hissələri ilə Azərbaycan ordusunun əsgərləri arasında bir neçə lokal toqquşmalar baş vermişdi. Üsyançılar XI Ordu hissələri ilə üç gün qanlı döyüşlər apardıqdan sonra məğlub oldular.

Bu zaman Şimali və Cənubi Qafqazda Qırmızı imperiyaya qarşı mübarizə aparan qüvvələri birləşdirməyə cəhdlər göstərilirdi. Dağıstandan bir qrup türk zabiti və əsgəri general Nuru paşanın rəhbərliyi ilə Şuşaya üsyan etmiş xalqa köməyə gəldi. Üsyançılar Qarabağda sovet hökumətini devirib Qarabağ inqilab komitəsinin üzvlərini həbs etdilər. Nuru paşa Qarabağın hakimi elan edildi. Onun ətrafında Azərbaycan ordusunun zabitlərindən Zeynalov, Səfiyev, sabiq pristav Kərimbəy Qalabəyov və başqaları var idi. İyunun 6-da yeni hakimin sərəncamı ilə Şuşa İnqilab Komitəsinin sədri B.Vəliyev, Türkiyə kommunisti Süleyman Nuru, qırmızı molla ləqəbli C.Hüseynov güllələndilər. Ancaq XI Ordunun əlavə kömək

almış hissələri ermənilərin yaxından iştirakı ilə azadlıq uğrunda mübarizəyə qalxmış əliyalın əhalini qırmağa başladı.

Ümumiyyətlə, 1920-1924-cü illərdə istilaçı rus ordusuna, bolşevik rejiminə qarşı 54 (bəzi mənbələrdə 60) silahlı üsyan baş vermişdi. Lakin qüvvələr qeyri-bərabər olduğundan xalq azadlıq uğrunda nə qədər cəsarət və fədakarlıqla mübarizə aparsa da qalib gələ bilmədi. Üsyanlar, çıxışlar yatırıldıqdan sonra ələ keçən vətənpərvərlərə divan tutulur, güllələnir, qohum-əqrabaları həbs edilir, şəhərlər və kəndlər qarət olunurdu.

Qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən partiya və ictimai-siyasi təşkilatların XI Qırmızı ordunun işğalçı yürüşünə və yeni sovet rejiminə münasibəti müxtəlif olmuşdur. 1920-ci il aprelin 27-si gecəsindən müsavatçılar Azərbaycanın işğalını tam aydınlığı ilə başa düşdükləri üçün gizli fəaliyyətə başladılar. Müsavatın fəal üzvlərindən olan Mirzə Bala Məmmədzadə və Əbdülvahab Yurdsevər M.Ə.Rəsulzadənin məsləhəti ilə böyük yazıçı, dramaturq Cəfər Cabbarlının şəhər kənarındakı evində istilaçılara qarşı mübarizə aparmaq üçün gizli Mərkəz yaratdılar. Bu gizli təşkilatın sədri M.B.Məmmədzadə, baş katibi C.Cabbarlı, müavini və Bakı Komitəsinin sədri Ə.Yurdsevər, M.S.Quluzadə və M.H.Baharlı oldu.

Müsavatçılar çarizm dövründə istifadə etdikləri gizli iş sistemini bərpa edərək tələbələr, əsgərlər, fəhlələr və kəndlilər arasında təbliğat işi aparırdılar. Ordu hissələrində də gizli müsavat təşkilatları fəaliyyət göstərirdi. Açıq təbliğat vasitələrindən, klub və kitabxanalardan da istifadə edilirdi. Gizli təşkilatlar kiçik qruplar şəklində fəaliyyət göstərirdi. Fəal iş aparan güclü təşkilatlar Bakıda, Gəncədə, Qarabağda və Qazaxda idi.

1923-cü il yanvarın 2-də keçirilən SSRİ MİK-nin birinci sessiyası MİK-nin rəyasət heyətini və sədrlərini seçdi. Azərbaycan respublikasından bura N.Nərimanov seçildi. Bununla da Sovet Rusiyasının Azərbaycanda yeritdiyi siyasətin «əl-ayağına dolaşan» N.Nərimanov respublikadan uzaqlaşdırıldı və sovet dövründəki formal müstəqilliyinə son qoyuldu.

Dekabrın 28-də Ermənistan İnqilab Komitəsi Naxçıvanı müstəqil Sovet Respublikası kimi tanıdı. 1921-ci ilin əvvəllərində burada RSFSR, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə əhalinin rəy sorğusu (referendum) keçirildi. Naxçıvan camaatının 90%-i Azərbaycanın tərkibində qalmaq arzusunu bildirdi. 1921-ci ilin yanvarında Naxçıvan İnqilab Komitəsi əvəzinə Naxçıvan Ölkə İnqilab Komitəsi təşkil edildi. Naxçıvanın statusu 1921-ci il martın 16-da Naxçıvan RSFSR və Türkiyə arasında imzalanmış xüsusi müqavilə ilə həll olundu. Tərəflər razılaşdılar ki, Naxçıvan ərazisi Azərbaycanın tərkibində qalmaq şərti ilə Naxçıvan SSR təşkil edilə bilər. Müqavilədə (III bənd) göstərilirdi ki, bu torpağı üçüncü dövlətlə güzəştə getmək olmaz, əks təqdirdə onun hər hansı bir hissəsi

Türkiyəyə güzəşt edilə bilər. Aprel ayında Türkiyə qoşunları Naxçıvanı tərk etdilər. Naxçıvan Ölkə İnqilab Komitəsi 1921-ci il sentyabrın 10-da səlahiyyətlərini Naxçıvan MSK və XKS-nə verdi. 1921-ci il oktyabrın 13-də Qarsda Rusiyanın iştirakı ilə bir tərəfdən Türkiyə, o biri tərəfdən Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları birlikdə (Moskva onların hər birinin ayrılıqda müqavilə bağlamasına icazə verməzdi) dostluq haqqında müqavilə imzaladılar. Qars müqaviləsinin 5-ci maddəsində qeyd olunurdu ki, Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir. Xəritə çəkildi və orada Naxçıvanın ərazisi dəqiq göstərildi.

Dövlət aparatının saxlanılmasının iqtisadi çətinlikləri ilə bağlı 1923-cü ilin əvvəllərində Naxçıvan Respublikasının respublika muxtariyyəti ləğv edildi, ona ölkə muxtariyyəti verildi. Naxçıvan Ölkə İcraiyyə Komitəsi yaradıldı. 1924-cü il fevralın 9-da isə Azərbaycan MİK Naxçıvan Ölkəsinin Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar SSR-ə verilməsi haqqında qərar qəbul etdi.

Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra Moskvanın təzyiqi ilə Azərbaycanın Borçalı ərazisi də Gürcüstana güzüştə gedildi. Eyni zamanda Bakını Azərbaycandan ayırıb Rusiyaya vermək planları hazırlanırdı. Lakin bu hiylə baş tutmadı. 1929-cü ildə yenidən 13 min hektar Azərbaycan ərazisi – Nüvəndi, Tutut və Ernazar kəndləri, habelə Naxçıvandan 9 kənd (582,9 des.), Qaymaqlı və Kürümüzlü arasında sahələr (228, 9 ha) Ermənistana verildi. 1938-ci ildə Ermənistanla Azərbaycan arasında sərhəddi dəqiqləşdirmək bəhanəsi ilə «bərabərtərəfli» komissiya yaradıldı. Azərbaycan tərəfdən də komissiyaya erməni, torpaq komissarlığının sədri İsaxanyan rəhbərlik edirdi. Martın 5-7-də imzalanmış protokola əsasən Laçının Qaragöl yaylası, Qubadlının Çayzəmi adlanan sahəsi, Qazağın Kəmərli kəndi və Kəlbəcərin Zod sahəsi Ermənistana verildi. Azərbaycan SSR Ali Soveti 1938-ci il mayın 5-də bu protokolu təsdiq etdi. Lakin buna baxmayaraq, azərbaycanlılar müqavimət göstərir, öz torpaqlarını əldən vermirdilər. Əhalisinin milli ruhu hələ də yüksək olan Azərbaycanı parçalamaq, onu ciddi problemlər qarşısında qoyub tam asılı vəziyyətdə saxlamaq üçün Moskva yeni tədbirlər görürdü.

Bu sətirlər bolşevik ideyalarının toruna düşmüş Azərbaycan rəhbərinin fəryadı idi. Lakin istefa vermək imkanı olmayan N.Nərimanov Moskvanı Şərqin ondan üz döndərməsi ilə hədələsə də, heç bir nəticə əldə edə bilmədi.

1921-ci ilin oktyabrında Qarabağın məsul işçilərinin konfransının qəbul etdiyi qərarda deyilirdi ki, Dağlıq Qarabağa ayrıca vilayət Muxtariyyatının verilməsi məqsədəuyğun hesab edilməsin.

Lakin respublikanın bu məsələdə fikri mərkəz üçün həlledici deyildi. PK(b)P MK-nın Zaqafqaziya ölkə komitəsinin 1923-cü il iyunun 23-27-də keçirilmiş plenumu Q.Orconikidzenin təzyiqi ilə ultimatum formasında bir aylıq müddət

ərzində Dağlıq Qarabağa vilayət muxtariyyatının verilməsi barədə AK(b)P MK-ya tapşırıq verdi. Həmin qərarı yerinə yetirməyə məcbur olan Azərbaycan MİK 1923-cü il iyulun 7-də Azərbaycan SSRin tərkibində mərkəzi Xankəndi olmaq şərti ilə «Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında» dekret verdi. Lakin ermənilər 1923-cü il 10 avqust tarixli fərmanla bu qədim Azərbaycan şəhərinə xalqımızın qəddar düşməni olan Şaumyanın şərəfinə Stepanakert adını verdilər (1991-ci il noyabrın 26-da Azərbaycan Milli Məclisi bu qərarı ləğv etdi və yaşayış məntəqəsinə əvvəlki adı verildi). Qarabağın dağlıq hissəsinə muxtariyyat statusunun verilməsi Azərbaycan tərəfindən bu torpaqların ermənilərə məxsus olmasının qismən də olsa etirafı idi. Bu isə Ermənistana və onun himayədarlarına gələcək siyasi oyunlar üçün bir «əlyeri» qoymaq idi. Əslində elə belə də oldu.

Yeni iqtisadi siyasətə keçid (1921-ci il) nəticəsində ölkə və respublika daxilində nisbi və iqtisadi sabitlik əldə edildi. Nəticədə, bolşevik istəyinə uyğun olmayan iqtisadi və siyasi proseslər başlandı. Sovet hakimiyyəti əsas diqqətini iqtisadiyyatın tənzimlənməsində inzibati üsulların gücləndirilməsinə yönəltdi. ÜİK(b)P-nin XIV qurultayında (1925-ci il) Yeni iqtisadi siyasət prinsiplərini möhkəmləndirmək kursu təsdiq edilsə də, artan iqtisadi çətinliklər iqtisadiyyatda inzibati metodların tətbiqini labüd etdi.

Sənayeləşmə dövründə Azərbaycan xalqı çox ağır çətinliklərlə üzləşməli oldu. Sənayeləşdirməni maliyyələşdirmək üçün dövlət kütlələrin olan-olmaz vəsaitini talan etdi. Bütün bunlara baxmayaraq sənayeləşmə respublikanın iqtisadiyyatında müsbət dəyişikliklərlə nəticələndi.

Beşillik dövründə Azərbaycanın yeni sənaye mərkəzləri – Gəncə, Xankəndi, Nuxa və s. inkişaf etməyə başladı. 1920-ci illərin sonu 30-cu illərin əvvəllərində Azərbaycanın inzibati-ərazi quruluşunda da dəyişikliklər baş verdi. 1929-cu ilin aprelində keçirilmiş VI Ümumazərbaycan Sovetlər qurultayının qərarı ilə respublikada 13 qəza ləğv edildi, onun yerinə 8 mahal (Bakı, Quba, Lənkəran, Şirvan, Muğan (Salyan), Zaqatala-Nuxa, Gəncə və Qarabağ) yaradıldı. Lakin 1930-cu il iyulun 23-də SSRİ MİK və XKS «Mahalların ləğv edilməsi haqqında» qərar qəbul etdiyindən mahallar ləğv edildi. Onun yerinə 63 inzibati rayon yaradıldı. Lakin 1932-ci ildə rayonlar böyüdüldü və onların sayı 47-ə endirildi.

Qolçomaqların bir sinif kimi ləğvi məsələsi partiya qərarlarında ilk dəfə 1930-cu il yanvarın 5-də ÜİK(b)P MK-nın «Kollektivləşmənin sürəti və kolxoz quruculuğuna dövlət tərəfindən yardım edilməsi tədbirləri haqqında»kı qərarında elan olundu. Qolçomaqlar üç kateqoriyaya bölünürdü:

1. Əksinqilabçı, terror aktlarının təşkilatçısı, kolxoz əleyhinə çıxışların təşkilatçısı hesab edilənlərə qarşı həbs və sürgün cəzası tətbiq edilirdi;

2. İkinci kateqoriyaya daxil edilənlər siyasi idarə xətti ilə başqa yerlərə köçürülməli;

3. Kolxozlardan kənarda yeni ərazilərə köçürülməli. Tətbiq edilən cəza tədbirləri SSRİ-nin digər yerlərində olduğu kimi Azərbaycanda da ciddi əks-səda doğurdu. 1930-cu ilin yazında Naxçıvan, Nuxa-Zaqatala bölgəsində qiyam baş verdi. Lakin bu qiyam amansızlıqla yatırıldı. Respublikanın Gəncə, Qarabağ, Quba, Cəbrayıl, Lənkəran, Biləsuvar və s. yerlərində müqavimət dəstələri fəaliyyət göstərirdi.

30-cu illərin əvvəllərindən başlayaraq cəza tədbirləri dalğası bütün ölkəni bürüməyə başladı. 1931-32-ci illərdə və 1933-cü ilin birinci yarısında bütün partiya üzvlərinin 65 faizini əhatə edən 13 diyar təşkilatı üzrə 40 minə qədər adam partiya əleyhinə və opportunist təmayüllər üstündə məsuliyyətə cəlb edildi. Cəza tədbirlərinin yeni dalğası 1934-cü ilin dekabrında Kirovun Leninqradda öldürülməsi ilə başladı və 1937-ci ildə özünün kulminasiya nöqtəsinə çatdı. 1938-ci il dekabrın 12-də tək bir gecədə Stalin 3187 nəfərin güllələnməsinə aid olan 30 siyahıya imza etmişdi. 30-cu illərin siyasi məhkəmə prosesləri və cəza tədbirləri Azərbaycanda ağır nəticələr verdi. Azərbaycanın siyasi rəhbərliyində və hüquq mühafizə orqanlarında özünə yer tapmış Akopov, Yemelyanov, Markaryan, Qriqoryan, Sumbatov- Topuridze, Bolşov, Asaturov və b. Stalinin və Beriyanın göstərişlərini qəddarlıqla yerinə yetirirdilər. 1937-ci ildə R.Axundov, Ə.Qarayev, S.M.Əfəndiyev, Q.Musabəyov, H.Vəzirov, D.Bünyadzadə, H.Səfərov və başqalarından ibarət **«əksinqilabi millətçi mərkəzin işi»**, yenə həmin ildə H.Sultanov, X.Hüseynov, İ.İbrahimov, A.Avalov, Ə.Məmmədov, Ə.Əmirov, A.Kələntərov, C.Cəbiyev və b. ibarət «əksinqilabçı» casus terrorçu, burjua-millətçi təşkilatın işi (Şamaxıda), 1938-ci ildə Azərbaycan SSR Xalq Torpaq Komissarlığında «əksinqilabçı-burjua millətçi, üsyankar-terrorçu, ziyankar təşkilatın işi Gəncədə, Q.Vəzirov və digər hərbçilərin işi, «Azneft işi» ilə əlaqədar məhkəmə proseslərində Azərbaycanın dövlət xadimlərinə, alim və yazıçılarına, fəhlə və kəndlilərə qarşı əsassız saxta ittihamlar irəli sürülürdü.

Saxtalaşdırılmış ittihamlar əsasında partiya və dövlət xadimləri – Azərbaycan KP MK katibləri Ə.Qarayev, R.Axundov, M.Nərimanov, Zaqfederasiya XKS sədri S.M.Əfəndiyev, respublika XKS-nin sədri H.Rəhmanov və XKS-nin müavini D.Bünyadzadə, xalq komissarları H.Sultanov, A.Sultanova, Q.Cuvalınski və b. cəza tədbirlərinin qurbanı oldular. Təkcə bir məhkəmə prosesi – R.Axundov və H.Sultanovla bağlı uydurma «əksinqilabçı-üsyançı-terrorçu mərkəzin işi» ilə əlaqədar 1700 adam, o cümlədən 20 xalq komissarı və müavini, 34 rayon icraiyyə komitəsinin sədri, 52 raykom katibi, 8 professor cəzalandırıldı. «Azneft işi» ilə bağlı Xəzər gəmiçiliyində 3300 nəfər adam cəzalandırıldı.

Azərbaycan Yazıçıları İttifaqının 1937-ci ildə iyun ayında keçirilmiş iclası H.Cavidi, H.Sanılını, M.Müşviqi xalq düşməni kimi İttifaqdan xaric etdi, Y.V.Çəmənzəminlinin, S.Mumtazın, S.Hüseynin, S.M.Qənizadənin, Qurban

Musayevin Yazıçılar İttifaqında qalmasını qeyri-mümkün hesab etdi. Ümumiyyətlə, 1937-38-ci illərdə Azərbaycanda saxta ittihamlarla 40 minə yaxın adam cinayət məsuliyyətinə cəlb edilmişdi. 1937-1940-cı illərdə orta hesabla hər il 12 min adam həbs edilmişdi.

Öz orbitinə planetin bir çox dövlətlərini cəlb edən İkinci dünya müharibəsi bəşər tarixində ən dağıdıcı və ən dəhşətli müharibə olmuşdur. Onu Birinci dünya müharibəsi ilə müqayisə etsək aşağıdakı faktların və rəqəmlərin şahidi olaraq. Əgər Birinci dünya müharibəsində 1 milyard nəfər əhalisi olan 38 dövlət iştirak etmiş, silahlı qüvvələri 70 milyon nəfər olan cəmi 14 dövlətin ərazisində döyüşlər aparılmışdısa, İkinci dünya müharibəsinə 1 milyard 700 milyon nəfər əhalisi olan 61 dövlət cəlb edilmiş (Yer kürəsi əhalisinin 80 faizini), altı il davam etmişdir. Birinci dünya müharibəsində 10 milyon nəfər, İkinci dünya müharibəsində isə təqribən 60 milyon nəfər adam həlak olmuşdur.

Sentyabrın 1-də Almaniya Polşa üzərinə hücuma keçdi. Bu hadisədən az sonra – sentyabrın 3-də İngiltərə və Fransa hökümətləri imzaladıqları müqaviləyə uyğun olaraq Almaniyaya müharibə elan etdilər. Beləliklə, İkinci dünya müharibəsi başlandı. Almaniya Avropanın mərkəzində çox böyük sürətlə hərbi əməliyyatlar həyata keçirirdi. Ümumiyyətlə, 1938-1941-ci illərdə faşist Almaniyası Avropanın 12 dövlətini işğal etmiş, Fransanı isə diz çökdürmüşdü. İkinci dünya müharibəsinin alovları planetə yayılırdı. 1941-ci il iyunun 22-də gecə saat 4 radələrində faşist Almaniyası hücum etməmək haqqında 1939-cu il müqaviləsini kobudcasına pozaraq, böyük zərbə qüvvəsi ilə -–190 diviziya, 5,5 milyon canlı qüvvə, 4300 tank, 4980 döyüş təyyarəsi, 190 döyüş gəmisi, 47,2 min müxtəlif silah və minomyot ilə Sovet İttifaqına basqın etdi. Güclü döyüş texnikasına və müasir hərbi təcrübəyə malik olan alman-faşist orduları, «Barbarossa planı» əsasında ildırım sürətilə SSRİ-yə 3 istiqamətdə – «Şimal», «Mərkəz» və «Cənub» istiqamətlərdə hücuma keçdi, çox qısa zamanda Pribaltikanın, Ukrayna və Belarusiya SSR-nin xeyli hissəsini, Krımı ələ keçirdi, Moskva istiqamətində irəliləməyə başladı. Almaniya Barents dənizindən Qara dənizədək 5 min kilometrlik cəbhə boyu irəliləyirdi. Beləliklə, SSRİ üçün Böyük Vətən Müharibəsi başlandı və SSRİ xalqları 1418 gün ağır sınaqlara, dözülməz məşəqqətlərə, qəhrəmancasına sinə gərdi, ağrılı-acılı günlərə dözdü, bütün qüvvələrini və ehtiyat imkanlarını maksimum səfərbəliyə aldı, nəhəng qüvvəyə malik olan düşmənlə ölüm-dirim savaşına qatıldı.

Tarixçilər İkinci dünya müharibəsinin tarixini 5 dövrə, Böyük Vətən müharibəsinin tarixini isə 4 dövrə ayırırlar.

**Birinci dövr** – 1939-cu il sentyabrın 1-dən 1941-ci il iyunun 21-dək;

**İkinci dövr** – 1941-ci ilin iyunun 22-dən 1942-ci il noyabrın 18-dək;
**Üçüncü dövr** – 1942-ci il noyabrın 19-dan 1943-cü il dekabrın 31-dək;
**Dördücü dövr** – 1944-cü il yanvarın 1-dən 1945-ci ilin mayın 9-dək;
**Beşinci dövr** – 1945-ci il mayın 9-dan sentyabrın 2-dək.

Müharibənin başlanması ilə Sovet dövlətinin və sovet xalqlarnın ağır sınaq dövrü başlandı. Sovet xalqlarının vahid ailəsinə qatılan və SSRİ-nin subyektlərindən biri olan Azərbaycan SSR müharibənin ilk günlərindən müsəlləh əsgər kimi ayağa qalxdı, möhkəm dayandı və düşmənlə ölüm-dirim savaşına girdi. Bəri başdan deyək ki, alman-faşist ordularının darmadağın edilməsində, bəşəriyyətin faşizm taunundan xilas edilməsində və Böyük tarixi Qələbənin qazanılmasında Azərbaycan xalqının çox böyük rolu və xidmətləri olmuşdur. Təsadüfi deyildi ki, Hitler Almaniyasının işğal planlarında Azərbaycan, Neft Bakısı xüsusi yer tuturdu. Hitlerin «Ost» planında Bakının işğal edilməsi diqqət mərkəzində dayanırdı. Qafqazı ələ keçirmək məqsədilə alman-faşist ordusunun qərargahı **«Edelveys»** adlı xüsusi plan hazırlamışdı (Edelveys – mürəkkəbçiçəklilər fəsiləsindən çoxillik bitki cinsidir, maraqlı çiçək növüdür – red.) Bu plana görə düşmən üç istiqamətdə hücum edib, Qərb istiqamətində Qara dəniz sahillərinə çıxmaq və oradan Zaqafqaziyaya hücum etmək, Şərq istiqamətində Qroznı, Mahaçqala və Bakını zəbt etmək, mərkəz istiqamətində Böyük Qafqaz aşırımını keçərək Tbilisi və Kutaisini ələ keçirmək istəyirdi. Hitler «Mənim mübarizəm» kitabında yazırdı ki, onlar (yəni türkdilli xalqlar) ali irqin qullarına çevrilməlidirlər.

Ümumiyyətlə, faşist Almaniyasının Şərq siyasəti **«Ost»** planında öz əksini tapmışdı. **«Ost»** adlı işğal planının müəllifi Rozenberqin başçılığı ilə yaradılan Şərq işləri üzrə nazirliyin nəzdində olan komissarlıqlardan biri də «Qafqaz» Komissarlığı idi. Rozenberqin «Qafqazın idarə olunması planı»na görə Azərbaycanda icraedici orqan olan «komissarlıq» yaradılmalı və iqamətgahı Tbilisidə yerləşəcək Qafqaz reyxkomissarlığına tabe edilməli idi. Hələ 1941-ci il martın 27-də Almaniyanın «Kontinental neft cəmiyyəti»nə Bakıda neftin çıxarılması, emalı və daşınması ilə məşğul olacağı tapşırığı verilmişdi. Artıq Azərbaycandakı iri sənaye müəssisələrinə «ali irqdən» rəhbər adamlar da təyin edilmişdi. Onlara ucuz işçi qüvvəsi hesabına Bakı neftinin Almaniyaya çatdırılması tapşırığı verilmişdi. Hələ 1941-ci il aprelin 29-da yaradılmış Oldeburq iqtisadi qərargahı tərəfindən tərtib edilmiş planda Qafqazın, o cümlədən Azərbaycanın və Bakının işğalı nəzərdə tutulmuşdu. **«Edesveys»** planına görə Qafqazın işğalı feldmarşal Listin «A» qrupu ordusuna tapşırılmışdı. Həmin plana görə Qafqaz 5 işğal rayonuna bölünməli idi. Onlardan biri də Azərbaycan rayonu idi. Qafqaz uğrunda döyüşlərdə «Ost» planında Bakının işğalı 1941-ci il sentyabrın 25-nə müəyyən edilmişdi. Faşist işğalından sonra Bakı nefti alman neft

şirkətinin («Ost-oyl», «Kontinent-oyl» və b.) sərəncamına verilməli idi. Bakıda neftin çıxarılması, emalı və daşınması Almaniyanın «Kontinental» neft cəmiyyətinə tapşırılmışdı. Hitler 1941-ci il iyulun 16-da rəsmi yığıncaqda bildirmişdir ki, Bakı alındıqdan sonra hərbi məntəqəyə çevrilməlidir. Faşist Almaniyasının işğal planları geniş idi. Hitlerin işğal planına görə SSRİ üzərində tam qələbədən sonra türk xalqları yaşayan ərazilərdən ibarət «Böyük Türküstan» dövləti yaradılmalı idi. Bu dövlətin ərazisinə Şimali və Cənubi Azərbaycan, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin və Əfqanıstanın daxil olması nəzərdə tutulurdu. Hitler Bakını faşist Almaniyasını yanacaqla təmin edən mərkəzə çevirmək niyyətində idi.

Diqqəti cəlb edən əsas amillərdən biri də o idi ki, SSRİ ilə müttəfiq olan və faşizmə qarşı eyni koalisiyada birləşən dövlətlər də neft Bakısını ələ keçirməyə çalışırdılar. Bu baxımdan ABŞ və İngiltərənin Qafqaz siyasətində Azərbaycan və Bakı neftinə sahib olmaq marağı özünü qabarıq göstərirdi. ABŞ və İngiltərə hər vasitə ilə Azərbaycana və Bakıya yiyələnməyə, onu özünün nüfuz dairəsinə çevirməyə ciddi cəhdlər göstərirdilər. Onların hazırladıqları **«Vilvet»** planına görə Sovet ordusu Qafqazdan çıxarılıb Stalinqrada aparılmalı, burada isə faşistlərə qarşı ingilis-amerikan hərbi hissələri vuruşmalı idi. Beləliklə, Azərbaycan və xüsusən Bakı nefti istər düşmən qüvvələrinin və istərsə də «müttəfiq»lərin xarici siyasət diplomatiyasında və işğalçılıq planlarında diqqət mərkəzində idi.

Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbayandan orduya 700 minə qədər adam səfərbər olunmuşdu ki, onların 11 mindən çoxu qadın idi. Rus dilini bilməmək Azərbaycanlı döyüşçülər üçün çətinlik törədirdi.

Bakı döyüşən ordunun əsil cəbbəxanası, «motorlar mübaribəsi»ni aparan hərbi texnikanı yanacaqla təmin edən güclü və etibarlı baza, 130 növ silah istehsal edən potensial cəbbəxana idi. Bütün bunları Hitler bilirdi və ona görə də Bakının işğalına xüsusi diqqət verirdi. «...Hitlerin ad gününə hazırlanmış böyük tortun üzərində Azərbaycanın xəritəsi, Bakı göstərilmişdi. Həmin o vaxt deyilmişdi ki, Bakını ələ keçirə bilsək, qələbəni əldə etmiş olcağıq».

1941-ci ilin dekabrından «Yak-3» qırıcı bombardmançı təyyarələrin istehsalına başlandı. 1942-ci ilin əvvəlindən başlayaraq cəbhənin sifarişlərini yerinə yetirən təyyarə təmiri zavodu tikildi. «Motorlar müharibəsi» deyilən müharibənin lap əvvəlindən Bakı ölkənin başlıca yanacaq bazasına çevrilib, döyüşən ordunu fasiləsiz olraq yanacaqla, neft və benzinlə, mazut, vazelein və digər sürtgü yağları ilə təmin edirdi. Neft məhsullarına və birinci növbədə motor yanacağına, sürtgü yağlarına və yüksək oktanlı benzinə cəbhənin tələbatını ödəmək məqsədilə qısa müddətdə geniş benzin – liqroin fraksiyasını təkrar emal edən bir sıra qurğular istifadəyə verildi. Aviasiya yağlarının alınmasının yeni texnologiyası

işlənib hazırlandı, xüsusi təyinatlı sürtgü yağlarının istehsalı artdı, keyfiyyəti yaxşılaşdı.

1941-ci ildə neftçilərimizin gərgin səyləri nəticəsində Azərbaycanın tarixində rekord həcmdə – 23,5 milyon ton neft hasil olundu ki, bu da ittifaqda çıxarılan neftin 71,4 faizini təşkil edirdi». Bakı nefti Qızıl Ordunun ən etibarlı dayağı idi. Ölkədə istehsal edilən neftin **70-75%-ni,** aviasiya benzini istehsalının **85-90%-ni** Bakı verirdi. Ümumiyyətlə, müharibə illərində Bakı neftçiləri **75 milyon ton neft, 22 milyon ton benzin, 22 milyon ton sürtgü yağları, 6,5 milyard kubmetr qaz** istehsal etmişdilər. Tanınmış dövlət xadimi N.Voznesenski yazırdı: «Bakı cəbhəni və ölkənin xalq təsərrüfatını neft məhsulları ilə fasiləsiz təmin edir, havada və yerdə yüz minlərlə motoru hərəkətə gətirirdi». Görkəmli Sovet sərkərdələri və marşalları G.G.Jukov, R.Y.Malinovski, F.İ.Tolbuxin və b. Bakının Böyük Vətən müharibəsində mühüm rolunu dönə-dönə qeyd etmişlər. Marşal G.G.Jukov yazırdı: «Bakı neftçiləri cəbhəyə və ölkəyə vətənimizin müdafiəsi üçün, düşmən üzərində tezliklə qələbə üçün nə qədər lazım idi, o qədər yanacaq vermişdilər».

Bakı neftçiləri dünya təcrübəsində ilk dəfə olaraq neftlə doldurulmuş sisternləri gəmilərin yedəyinə alıb aparırdılar.

Moskva uğrunda qanlı vuruşmalarda Azərbaycan döyüşçüləri fərqlənmişdilər. Tank hissəsinin komandiri, kapitan Həzi Aslanov qeyri-adi sərkərdə bacarığına və göstərdiyi qəhrəmanlığa görə Qırmızı Ulduz ordeni ilə təltif olundu. İ.Vəliyev Qırmızı Bayraq ordeni ilə təltif edilmişdi. Moskva uğrunda gedən döyüşlərdə baş serjant İsrafil Məmmədovun əfsanəvi igidliyi bütün ölkəyə yayıldı. İ.Məmmədovun dəstəsi Novqorod vilayətinin Pustınka kəndi yaxınlığında mövqe tutmuşdu. Göstərdiyi igidliyə görə İsrafil Məmmədova 1941-ci il dekabrın 11-də Sovet İttifaqı Qəhrəmanı adı verildi. İsrafil Məmmədov Sovet İttifaqı Qəhrəmanı adını alan ilk azərbaycanlı idi.

Stalinqrad ətrafında 55-ci xüsusi tank alayının komandiri podpolkovnik Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirdi. Həzi Aslanovun tank briqadası ağır döyüşlər apararaq bir neçə yaşayış məntəqəsini düşmənlərdən azad etdi. Bu döyüşlərdə düşmənin 49 tankı, 14 minamyot batareyası, 3 piyada rotası, 50 avtomobili məhv edildi, 1400 hitlerçi əsir götürüldü. 1942-ci il dekabrın 31-də SSRİ Ali Sovetinin Rəyasət Heyyətinin fərmanı ilə Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Qafqaz uğrunda gedən döyüşlərdə Xanqulu Sadıqov bir döyüşçü ilə 1942-ci ildə avqustun 25-dən 29-dək düşmənin 300 canlı qüvvəsini məhv etmişdi. X.Sadıqov igidliyinə görə Lenin ordeni ilə təltif olundu. 1942-ci ilin oktyabrında Qafur Məmmədov şücaət və igidlik göstərərək 13 faşisti məhv etdi. Qafur Məmmədov alman avtomatçısının rota komandiri Z.Santskini nişan aldığını

görərək, sürətlə irəli atıldı və öz həyatı bahasına onu xilas etdi. 1943-cü il martın 31-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Qafur Məmmədova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi. 13 dekabr 1942-ci il tarixli fərmanla İ.Süleymanov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Mozdok rayonunda 402-ci atıcı diviziyasının 833 saylı alayının komandiri Akim Abbasovun döyüşçüləri düşmənin 96 tankını, 2 zirehli maşınını və çoxlu faşist məhv etmişdi. Göstərdikləri igidliyə görə alayın 72 döyüşçüsü orden və medallarla, mayor A.Abbasov isə Qırmızı Bayraq ordeni ilə təltif olunmuş, ona podpolkovnik hərbi rütbəsi verilmişdi. Qafqazın müdafiəsi uğrunda döyüşlərdə leytenant Ziya Bünyadovun bölməsi düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etmişdi. Göstərdiyi igidliyə görə Z.Bünyadov Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu. 1945-ci ilin yanvarında Plitsa çayı üstündəki körpü uğrunda göstərdiyi şücaətə görə Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Tibb işçisi Qüdrət İsmayılov igidliyinə görə Qırmızı Ulduz ordeni ilə təltif edilmişdi. İgid şahin Adil Quliyev düşmənin 18 təyyarəsini məhv etdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Kursk qövsündə 800 faşisti məhv edən və qeyri-bərabər döyüşdə özü də qəhrəmancasına həlak olan İ.İlyasova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Pulemyotçu Ağaşirin Cəfərov 500-dən artıq faşist öldürmüşdü. Göstərdiyi igidliyə görə A.Cəfərov 1943-cü il 1 noyabr tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 1943-cü ilin oktyabrında 300 hitlerçini məhv edən Mehdi Quliyev 1943-cü il 17 noyabr tarixli fərmanla Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 1943-cü il 26 oktyabr tarixli Fərmanla Məmməd Ələkbərov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Ukrayna torpaqlarının azad edilməsində Məlik Məhərrəmovun adı iftixarla çəkilir. Dneprin keçilməsində göstərdiyi igidliyə görə 1943-cü il sentyabrın 27- də Məlik Məhərrəmova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Dneprin keçilməsində igidliyinə görə Məmməd Məhərrəmova və Səlahəddin Kazımova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Kiyevin azad edilməsində igidliyə görə Xıdır Mustafayev 1944-cü il 10 yanvar tarixli Fərmanla Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Döyüşdə göstərdiyi igidliyə görə Əmir Piriyevə 1944-cü il mayın 7-də Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Belarusiyanın azad olunmasında qvardiya general – mayoru, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun komandanlıq etdiyi tank briqadasının döyüşçüləri böyük müvəffəqiyətlər qazandılar. Həzi Aslanovun tank briqadası və şəxsən özü əsl igidlik və qəhrəmanlıq nümunələri göstərdilər. Onun briqadası Ali Baş Komandanın təşəkkürünə layiq görüldü. Həzi Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Lakin ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ona çox gec – 1991-ci il iyunun 21-də verildi. 1945-ci il yanvarın 24-də Həzi Aslanov

müəmmalı şəkildə yaralandı və həlak oldu. Döyüşlərdə göstərdikləri qəhrəmanlığa görə Qəzənfər Əkbərov, Bəhyəddin Mirzəyev, Yusif Sadıxov və başqaları Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər.

Böyük Vətən Müharibəsi illərində Azərbaycanda yaradılan dörd milli diviziya – 77-ci, 223-cü, 402-ci və 416-cı diviziyalar şərəfli döyüş yolu keçərək Azərbaycan xalqının və Böyük Vətən Müharibəsi tarixinə qızıl hərflərlə daxil oldu. Bu diviziyalardan başqa 227-ci və 271-ci diviziyalar da komplektləşdirildi ki, onların da şəxsi heyyətinin 30%-dən 70%-ə qədəri azərbaycanlı idi. Simferopolun azad edilməsində göstərdiyi qəhrəmanlığa görə 77-ci diviziyaya SSRİ Ali Soveti Rəyasət Heyyətinin 24 aprel 1944-cü il tarixli Fərmanı ilə «Simferopol diviziyası» fəxri adı verilmiş, onun şərəfinə Sapundağda abidə ucaldılmışdı. Tarixə 77-ci Simferopol diviziyası adı ilə daxil olan bu şanlı hərbi birləşmə 1922-ci il iyulun 6-da Azərbaycan Xalq Hərbi Dəniz Komissarlığının 207/a nömrəli əmri ilə yaradılan Azərbaycan atıcı diviziyasının varisidir. Vaxtilə bu diviziyaya Cəmşid Naxçıvanski rəhbərlik etmişdi. Qambay Vəzirov, Cabir Əliyev, Rəhim Aslanov kimi azərbaycanlı hərbiçilər bu diviziyada böyük hərbi məktəb keçmişlər. Qafqazın müdafiəsində və bütövlükdə Şimali Qafqazın azad edilməsində, habelə Krımın və Ukrayna torpaqlarının düşməndən təmizlənməsində 77-ci diviziyanın böyük rolu və tarixi xidmətləri olmuşdur. Suvorov ordenli 77-ci diviziya müharibə illərində 10.900 km-lik döyüş yolu keçmiş, yüzlərlə kənd və şəhəri faşistlərdən azad etmişdir. Diviziyanın 11.237 nəfər əsgər və zabiti orden və medallarla təltif olunmuşdur.

416-cı diviziyanın 8 döyüşçüsü Sovet ittifaqı Qəhrəmanı adını almış, 11 nəfəri Lenin ordeni, 358 nəfəri Qırmızı Bayraq ordeninə layiq görülmüşdür. Diviziyanın 14.369 nəfər döyüşçüsü orden və medallarla təltif olunmuşdur. Taqanroq şəhərini azad etdiyinə görə ali Baş Komandanın əmri ilə 416-cı diviziyaya «Taqanroq» fəxri adı verilmişdi. Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçən 416-cı Taqanroq diviziyası 1945-ci il mayın 2-də Berlinin Brandenburq darvazasına qələbə bayrağı sancmışdı.

Azərbaycan diviziyaları Ukraynanın, Belorusiyanın, Polşanın, Çexoslovakiyanın, Rumıniyanın, Macarıstanın, Yuqoslaviyanın azad edilməsində fəal iştirak etmişlər. Ukrayna ərazilərinin alman – faşist işğalçılarından azad olunmasında fəal iştirak edən 223-cü Azərbaycan diviziyası Bolqarıstanın, Macarıstanın, Rumıniyanın, Yuqoslaviyanın azad edilməsində böyük xidmətlər göstərmişdir. Bu diviziya Yuqoslaviyanın paytaxtı Belqrad uğrunda göstərdiyi rəşadətə görə "Belqrad diviziyası" fəxri adına layiq görülmüşdü.

271-ci Azərbaycan diviziyası Polşanın və Çexoslavakiyanın faşistlərdən təmizlənməsi uğrunda aparılan döyüşlərdə fərqlənmişlər. 1943-cü ilin sentyabrında "Donetsk" əməliyyatında göstərdiyi rəşadətə görə 271-ci diviziyaya fəxri

“Qorlovka“ adı verilmişdi. Diviziyanın igid döyüşçülərindən olan Z.Bünyadov, A.Vəzirov, M.Abdullayev və b. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər. Şəxsi heyətinin 70 faizə qədəri azərbaycanlı olan 227-ci atıcı diviziya Taman yarımadasının faşistlərdən azad edilməsində fərqləndiyinə görə ona «Temyurq» fəxri adı verilmişdi.

Azərbaycanın oğul və qızları partizan müharibələrində və antifaşist müqavimət hərəkatlarında da böyük qəhrəmanlıqlar göstərmişlər. Əfsanəvi qəhrəman «Mixaylo» ləqəbli Mehdi Hüseynzadənin İtaliyada və Yuqoslaviyada şərəfli mübarizəsi bütün nəsillərə nümunədir. Bu gün onun məzarı milyon – milyon insanların ziyarətgahına çevrilmişdir. 1957-ci il aprelin 11-də ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Fransız generalı Şarl-De Qollun rəhbərlik etdiyi müqavimət hərəkatı tarixinə şanlı səhifələr yazmış, Xarqo təxəllüsü ilə tanınan Əhmədiyyə Cəbrayılov Fransanın Milli Qəhrəmanı adına, dövlət bayrağından irəli getmək şərəfinə layiq görülmüşdür. Azərbaycan övladları Vətəndən uzaqda olmalarına baxmayaraq, onların faşizmə qarşı nifrəti bir an belə səngiməmiş, bütün vasitələrdən istifadə edərək düşmənlə ölümdirim mübarizəsinə qalxmış xalqlara qoşularaq, bir sıra bölgələrdə belə mübariz və döyüşən dəstələrə rəhbərlik etmişlər.

Mühacirlər əsir düşmüş azərbaycanlıların içərisində ayrıca milli legionların yaradılması və ən mühümü isə Almaniyanın Azərbaycanın müstəqilliyinin tanıması istiqamətində intensiv iş aparırdılar.

Ölüm hallarının qarşısını almaq məqsədi ilə də Milli legionların yaradılmasının əhəmiyyəti böyük idi. Milli legionların yaradılmasında görkəmli vətənpərvər, xalqını və Vətənini sevən mayor Əbdül Rəhim bəy Fətəlibəyli-Düdənginskinin böyük xidmətləri olmuşdur. Ə.Fətəlibəyli- Düdənginski (Naxçıvanın Düdəngəkəndində doğulmuşdu) 1940-cü ildə Moskva Hərbi Akademiyasını bitirmiş və ailəsi ilə birlikdə Litvaya getmişdi. O, Baltikyanı döyüşlərin birində almanlara əsir düşmüş və 1941-ci ilin noyabrında Hitlerə məktub yazaraq Azərbaycan legionlarının yaradılması fikrini bildirmişdi.

Rozenberqin təklifi illə Hitler 1941-ci il dekabrın 22-də Milli legionların yaradılması haqqında əmr verdi. 1942-ci ilin baharında Milli legionların yaradılması işinə başlandı. İlk legionlar işğal altında olan Polşada yarandı. Legionlara rəhbərlik edənlərin 20-25 faizi alman zabitləri idi. Azərbacyan legionerlərinin sayı 70 mindən çox idi. Hər bir Milli legionda almanlar tərəfindən maliyyələşdirilən «Azərbaycan», «Milli birlik», «Hücum» qəzetləri nəşr olunurdu.

1942-ci ilin əvvəllərindən formalaşmağa başlayan Azərbaycan legionları döyüşlərdə bir sıra ciddi uğurlar qazanmış, Kubana, Şimali Qafqaza qədər gəlib çıxa bilmişdi. M.Ə.Rəsulzadə 1942- ci ilin sonlarında Almaniyanı tərk etdi.

1943-cü ilin payızında Berlində mühacir Azərbacyan Parlamenti və Azərbaycan Hökuməti yaradıldı. Hökumətin başında Ə.Fətəlibəyli- Düdənginski

dururdu. Almaniya hökuməti «Mühacir Azərbaycan hökuməti»ni tanıdı. Bu hökumət 1944-cü ilin qışınadək fəaliyyət göstərmişdi. Azərbaycan Milli legionu Fransanın cənubunda almanlarla birlikdə müttəfiqlərin qoşunlarına qarşı döyüşlərdə iştirak etdi. 1944-cü ilin iyununda ikinci cəbhə açılandan sonra almanların vəziyyəti ağırlaşdı, amerikan qoşunları Atlantik sahillərini ələ keçirdi. Bu zaman geri çəkilən almanlarla birlikdə Azərbacyan Milli legionu da geri çəkilirdi. Müharibə qurtardıqdan sonra azərbaycanlı legionçular dünyanın müxtəlif ölkələrinə səpələndilər. Almaniyanın məğlubiyyətindən sonra Azərbaycan Milli Hökumətinin prezidenti Ə.Fətəlibəyli- Düdənginskinin ağır mühacirət dövrü başlayır. O, əvvəl Misirə, sonra Türkiyəyə gedir. «Bolşevizmə qarşı mübarizə» məqsədilə ABŞ ideoloji təbliğat vasitəsi olan «Azadlıq» radiosunu təşkil edir və Ə.Fətəlibəyli-Düdənginskini Azərbaycan redaksiyasının redaktoru vəzifəsinə dəvət edir. «Azadlıq» radiostansiyasının açılışı Stalinin ölümü günü - 1953-cü il martın 5-də olur. 1954- cü ildə Ə.Fətəlibəyli-Düdənginski sovet casusu tərəfindən xaincəsinə öldürülür.

Müharibə dövründə xüsusilə Azərbaycanın kimyaçı və tibb alimləri misilsiz işlər görmüş, müxtəlif növ silahlar və partladıcı hərbi sursatlar hazırlamış, bir çox qiymətli təkliflər irəli sürmüşdülər. 1941-ci ilin yayında Bakıda ilk hydrogen birləşmələri qrupu hazırlandı. Yusif Məmmədəliyevin rəhbərliyi ilə bir qrup alim 28 gün laboratoriyadan çıxmayaraq, neft-kimya elmində böyük hadisə olan yüksək oktanlı aviasiya benzini əldə etdi. Akademik Y.H.Məmmədəliyevin sədrliyi ilə görkəmli Azərbaycan alimləri R.H.İsmayılov, H.X.Əfəndiyev, Ə.M.Quliyev, H.B.Şaxtaxtinski, S.C.Mehdiyev, V.S.Qutırya, Ş.A.Məmmədov və başqalarından ibarət kimya problemləri üzrə nüfuzlu və səlahiyyətli bölmə yaradıldı. Neft emalı müəssisələrində 75 laboratoriya fəaliyyət göstərirdi. Alimlərimiz mühüm hərbi əhəmiyyəti olan xlorlu metal, müxtəlif partladıcı maddələr, təyyarə, tank və hərbi maşınlar üçün sürtgü yağları, metalkəsən dəzgahlar, avtomat qurğu silahları və digər silah növləri hazırlayırdılar. Kimyaçı alimlərimizi n köməyi ilə 100 növ neft-kimya məhsulları, o cümlədən 38 növ sürtgü yağı, 9 adda təyyarə benzini, 8 növ dizel yağı istehsal edilirdi.

1945-ci il martın 23-də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı əsasında Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı ki, bu da respublikamızda elmin inkişafında mühüm rol oynadı.

Güclü hücuma keçən Qırmızı Ordu hissələri 1945-ci il aprelin sonlarına yaxın düşməni son nöqtəsinə qədər sıxışdırıb darmadağın etdilər və strateji Berlin əməliyatını uğurla başa çatdırdılar. Aprelin 30-da Reystaq üzərinə qələbə bayrağını sancdılar. Həmin gün alman dəftərxanasının yeraltı bunkerində gizlənən Hitler özünü öldürdü. Mayın 2-də Berlin hücumla alındı, Berlin qarnizonu silahı yerə qoydu, təslim oldu. Mayın 8-də Berlində Almaniya Ali Komandanlığının

nümayəndələri danışıqsız təslim olmaq haqqında akta imza atdılar. Mayın 9-u tarixə **Qələbə Günü** kimi daxil oldu.

1945-ci il iyunun 24-də Moskvada Qızıl Meydanda Azərbaycan döyüşçülərinin nümayəndələrinin də iştirak etdiyi Sovet Ordusunun Qələbə paradı keçirildi. 1945-ci il iyulun 17-dən avqustun 2-dək Berlin yaxınlığında Potsdam şəhərində SSRİ, ABŞ və Böyük Britaniya dövlət başçılarının – Stalin, Trumen və Çerçillin iştirakı ilə beynəlxalq konfrans oldu. Potsdam konfransında dünyanın geosiyasi məsələləri müzakirə olundu. Konfransdan az sonra, götürdüyü təhhüdə uyğun olaraq SSRİ 1945-ci il avqustun 9-da Yaponiyaya müharibə elan etdi. Yaponiyaya qarşı müharibədə 223-cü Azərbaycan diviziyası, bir çox Azərbaycan döyüşçüləri iştirak edirdilər. Göstərdikləri rəşadətə görə Qara Sarıyev, Aslan Aslanov, Hacı Hacıyev, Niyaz Hüseynov, Hacı Rzayev, Ələkbər Səfərov və başqaları «Yaponiya üzərində qələbəyə görə» medalı ilə təltif olunmuşdular.

İkinci dünya müharibəsi bəşəriyyəti böyük tələfata, maddi və mənəvi məhrumiyyətlərə və ağır sarsıntılara düçar etdi. Müharibədə itirak edən ölkələrdən 60 milyona yaxın adam həlak oldu. Onlardan keçmiş SSRİ 27-28 milyon, Almaniya 13,6 milyon, Polşa 6 milyon, Çin 5 milyon, Yaponiya 2,5 milyon, İndoneziya 2 milyon, Yuqoslaviya 1,7 milyon, Filippin 1 milyon, Fransa 600 min, İngiltərə 375 min, ABŞ 300 min, Avstraliya və Yeni Zelandiya 40 min adam itirmişdir. 1941-1945-ci illərdə cəbhəyə Azərbaycandan 700 min nəfərə yaxın döyüşçü göndərilib. Onlardan 300 minə qədəri qəhrəmanlıqla döyüş cəbhələrində həlak olub. Geri qayıdan 400 min nəfərin yarısına qədəri isə şikəst və əlil olmuşdur. Müharibədə göstərdikləri igidliklərinə və şücaətlərinə görə 130 nəfər həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adı almış, 30 nəfər isə Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur. Döyüşlərdə iştirak edən həmyerlilərimizin 200 min nəfərdən çoxu orden və medallarla təltif edilmişdir. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülənlərdən 43 nəfəri azərbaycanlıdır.

Bəşəriyyəti daha çox ağır iqtisadi dağıntıya, tənəzzülə məruz qoyan, 65-67 milyon insanın məhvinə səbəb olan, dünyanın geosiyasi mənzərəsində, ictimai-siyasi və social həyatında kəskin dəyişikliklərə səbəb olan **II Dünya müharibəsi sona çatdıqdan sonrakı illərdə sosializm bir ölkə çərçivəsindən çıxaraq dünya sisteminə çevrildi. Bu illərdə Sovet imperiyasının nüfuzu daha da artdı. O, çox güclü hərbi-siyasi qüvvəyə, atom və nüvə silahlarına malik olan dövlətə çevrildi.**